# QARABAĞ AZƏRBAYCANDIR!

**Vətən müqəddəsdir.** Hər bir xalqın öz vətəni var. Vətənini sevən insan onun dərdinə kədərlənir, sevincinə sevinir. 30 ilə yaxın idi ki, vətənsevər azərbaycanlıların qəlbində Vətən dərdi yurd salmışdı. 1992–1993-cü illərdə müstəqilliyini yenicə bərpa edən Azərbaycan dövləti hələ bugünkü kimi güclü deyildi. Bundan istifadə edən Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini işğal etdi. İşğalçılar dinc əhalini doğma yurd-yuvasından qovdular. Bir milyona yaxın insan qaçqına, məcburi köçkünə çevrildi. Birləşmiş Millətlər Təşkilatı Ermənistanı işğal etdiyi Azərbaycan torpaqlarından çıxmağa çağıran 4 qətnamə qəbul etdi. Ermənistan bu çağırışa əməl etmədi.

**Azərbaycan sülhsevər ölkədir.** Müharibə döyüş deməkdir. Döyüş isə qansız, qurban sız olmur. Xalqımızı bu itkilərdən qorumaqdan ötrü Azərbaycanın dövlət başçıları işğal altında olan torpaqlarımızı dinc yolla qaytarmaq üçün danışıqlara başladılar. O zaman Azərbaycan Respublikasının Prezidenti olan Heydər Əliyev Lissabonda keçirilən beynəlxalq tədbirdə Ermənistan prezidentinə və xalqına da sülh çağırışları edərək tədbir iştirakçısı olan ölkələrin hamısını bütövlükdə Dağlıq Qarabağ məsələsinin həllinə kömək etməyə çağırdı: "Zirvə görüşünün iştirakçısı olan dövlət və hökumət başçılarına üz tutub onlardan xahiş edirəm ki, Avropada sürəkli və viranedici münaqişələrdən biri olan Ermənistan–Azərbaycan münaqişəsinin tezliklə aradan qaldırılması üçün səylərini əsirgəməsinlər". Bu çağırışa cavab olaraq həmin tədbirdə iştirak edən 53 ölkə beynəlxalq hüquq normalarına əsasən Azərbaycanı haqlı tərəf, Ermənistanı isə işğalçı dövlət kimi tanıdı. Bu, Azərbaycanın böyük diplomatik uğuru və qələbəyə aparan böyük yolun başlanğıcı idi.




*Heydər Əliyev Lissabon Zirvə toplantısında. 1996-cı il*

Danışıqlar davam etdiyi müddətdə Azərbaycan dövləti ən müasir silahlarla təchiz olunmuş ordu quruculuğunu davam etdirdi.



*Cənubi Qafqazın ən güclü ordusu–Azərbaycan Ordusu*



*Ali Baş Komandan Prezident İlham Əliyev silahlara baxış keçirir.*

Heydər Əliyevin siyasətini davam etdirən Prezident İlham Əliyev də iştirak etdiyi bütün beynəlxalq görüşlərdə “Azərbaycan xalqı torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, danışıqlar yolu ilə mümkün olmasa, biz hərbi yolla torpaqlarımızı geri qaytaracağıq, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır!” deyirdi. Bu gün Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü ordusudur.

30 ilə qədər uzanan danışıqlar nəticəsiz qaldı. Ermənistan ordusunu torpaqlarımızdan çıxarmaq mümkün olmadı.

**Ermənistanın yeni ərazi iddiaları.** Bizim zəif olduğumuzu düşünən Ermənistanın hökumət başçısı Azərbaycanın yeni ərazilərini tutmağa hazırlaşdıqlarını bəyan etdi. Ermənistan sərhədlərimizi tez-tez və ciddi şəkildə pozmağa başladı. Azərbaycan xalqı və Prezident İlham Əliyev bütün bunlara seyrçi qala bilməzdi. Ali Baş Komandan İlham Əliyev Azərbaycanın Silahlı Qüvvələrinə Ermənistanın növbəti təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün “İrəli” əmrini verdi.

2020-ci ilin 27 sentyabrında Azərbaycanın şanlı ordusu öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirməyə başladı.

**44 günlük müharibə.** Sonuncu Qarabağ müharibəsi Azərbaycan xalqının qəhrəmanlığını bütün dünyaya göstərdi. Sürətlə hücuma keçən Azərbaycan ordusu qısa zaman ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, Suqovuşan və Hadrut qəsəbələrini işğaldan azad etdi. Qarabağın tacı Şuşa şəhərinin düşməndən geri alınması Azərbaycanın hərb tarixinin ən şanlı səhifələrindən biri oldu. Məğlubiyyətin qaçılmaz olduğunu görən Ermənistan Azərbaycandan müharibəni dayandırmağı xahiş etdi və məğlubiyyəti qəbul edərək işğal etdiyi rayonları boşaldacağını öhdəsinə götürdü. Azərbaycan Ağdam, Kəlbəcər və Laçın rayonlarını itki vermədən geri qaytardı.

Azərbaycan Ermənistanı BMT-nin qətnamələrini yerinə yetirməyə hərb yolu ilə məcbur etdi.

Müharibə günlərində Ermənistan bu dəfə də müharibə qanunlarını pozaraq edərək dinc əhaliyə qarşı terror aktı törətdi. Ermənistandan atılan raketlər Gəncə və Bərdə şəhərlərində onlarla dinc sakinin həyatına son qoydu.

Azərbaycan Prezidenti İlham Əliyev isə çıxışlarında dedi: “Biz Ermənistan kimi dinc əhali ilə vuruşmuruq, biz günahsız qurbanların intiqamını döyüş meydanında alacağıq!” Dünya birliyi Azərbaycan xalqının iradəsinin, ordumuzun sarsılmaz qüdrətinin, dövlət başçımızın müdrikliyinin və uzaqgörənliyinin də şahidi oldu. Biz həm döyüş, həm də siyasət meydanında sübut etdik ki, Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanın siyasət meydanındakı qələbələri onun hərb meydanında haqlı tərəf olduğunu sübut etdi. Hərb meydanındakı möhtəşəm qələbələr isə diplomatik cəbhədəki parlaq uğurlara şərait yaratdı. Beləliklə, sonuncu Qarabağ müharibəsində Ermənistan tam məğlub oldu. Ədalət zəfər çaldı. 2020-ci ilin payızında Azərbaycan 44 günlük müharibədə şanlı qələbə qazanıb uzun illərdən bəri işğal altında olan torpaqlarını geri qaytardı. Ərazi bütövlüyümüz bərpa oldu. Vətən dərdi ürəkləri birdəfəlik tərk etdi.

Qarabağ Azərbaycandır! Azərbaycanın övladları bu torpaq uğrunda hər bir çətinliyə sinə gərməyə hazırdır.

***Sual və tapşırıqlar***

*1. Ermənistanın torpaqlarımızı işğal etməsi ilə bağlı BMT dörd qətnamə qəbul etdi. Bu qətnamələrin qəbul edilməsini şərtləndirən əsas amil nə idi?*

*2. Ermənistan – Azərbaycan münaqişəsinin həlli ilə hansı beynəlxalq təşkilat məşğul olurdu?*

*3. Danışıqlar nə üçün nəticəsiz qaldı?*

*4. “Hərb meydanındakı möhtəşəm qələbələr isə diplomatik cəbhədəki parlaq uğurlara şərait yaratdı” fikrini izah edin.*

*5. Sizcə, Vətən müharibəsindəki qələbəsi Azərbaycanın beynəlxalq imicinə necə təsir göstərəcək? Fikrinizi nümunələrlə əsaslandırın.*

*6. **Esse yazın:** “Əziz Şuşa, sən bizimsən, sən azadsan, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!” Ali Baş Komandan İlham Əliyev*

Hazırladı: ***Gülər Mehdiyeva***